# Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 327** **QƏRAR** **Bakı şəhəri, 13 oktyabr 2015-ci il**

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 2 oktyabr tarixli 285 nömrəli qərarı ilə təsdiq edilmiş "Qala" Dövlət Tarix-Etnoqrafiya Qoruğunun xüsusi rejimi haqqında Əsasnamə"də dəyişikliklər edilməsi barədə

"Tikinti işlərinin dayandırılması Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 22 may tarixli 533 nömrəli fərmanının 2.2-ci bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 2 oktyabr tarixli 285 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 10, maddə 1206) ilə təsdiq edilmiş "Qala" Dövlət Tarix-Etnoqrafiya Qoruğunun xüsusi rejimi haqqında Əsasnamə"nin 2.16-cı bəndində aşağıdakı dəyişikliklər edilsin:

1. Birinci cümlədə "və Azərbaycan Milli Elmlər Akademiyasına" sözləri ", Azərbaycan Milli Elmlər Akademiyasına və yerli icra hakimiyyəti orqanına" sözləri ilə əvəz edilsin.
2. İkinci cümlə aşağıdakı redaksiyada verilsin:

"Bu zaman tikinti işlərinin davam etdirilməsi barədə qərar Azərbaycan Milli Elmlər Akademiyasının və mütəxəssislərin rəyi əsasında, idarənin razılığı ilə Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyi tərəfindən qəbul edilir.".

***Artur RASİ-ZADƏ,***
***Azərbaycan Respublikasının Baş naziri***